AZƏRBAYCAN
RESPUBLİKASI
VERGİLƏR
NAZİRLİYİ

# Fiziki Şəxslərin Gəlir Vergisi

#05

Dövlət naminə

www.taxes.gov.az

**Fəaliyyətinizi gəlir vergisinin ödəyicisi kimi həyata keçirmək istəyirsinizsə və ya artıq gəlir vergisinin ödəyicisinizsə, bilməlisiniz ki...**



**Sahibkarlıq fəaliyyəti ilə məşğul olunduğu halda:**

- Təqvim ili ərzində ümumi gəlirdən bu gəlirin əldə edilməsi ilə əlaqədar çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən **20 faiz** dərəcə ilə vergi hesablanmalı;

- Rüb qurtardıqdan sonra **15 gündən gec olmayaraq** cari ödəmələr dövlət büdcəsinə ödənilməli, hesabat ilindən sonrakı ilin **mart ayının 31-dən gec olmayaraq "Gəlir vergisinin bəyannaməsi"** vergi orqanına təqdim edilməli və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparılmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisi dövlət büdcəsinə ödənilməli;

- Hər ay üçün **məcburi dövlət sosial sığorta haqqı** hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə **yalnız nağdsız** hesablaşma qaydasında ödənilməli;

- Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın **20-dən gec olmayaraq** "Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat" uçot üzrə vergi orqanına təqdim edilməlidir.

## **Qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olunduğu halda:**

- İllik gəlirdən **14 faiz** dərəcə ilə gəlir vergisi hesablanmalı;
- Dividendlərdən, faizlərdən, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, uduşlardan, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən əldə olunan gəlirdən (mükafatdan) və pul şəklində uduşlardan (mükafatlardan) ödəmə mənbəyində **10 faiz**, həmçinin icarə haqlarından və royaltidən **14 faiz** dərəcə ilə ödəmə mənbəyində vergi tutulmalı **(bu zaman dividend, faiz, icarə haqqı, royalti, daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlər və idman mərc oyunlarından əldə edilən uduşlar digər vergi tutulan gəlirdən çıxılır və bir daha vergiyə cəlb edilmir)**;
- Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan, əlvan və qara metal qırıntılarının, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların, utilizasiya məqsədləri üçün işlənmiş şinlərin təqdim edilməsini həyata keçirən fiziki şəxslərin həmin malların təqdim olunmasından əldə etdiyi gəlirlərindən onlara ödəmələr həyata keçirən şəxslər tərəfindən xərclər çıxılmadan 2 faiz dərəcə ilə vergi tutulur;
- Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər və ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud respublika hüdudlarından kənar gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər tərəfindən hesabat ilindən sonrakı ilin **mart ayının 31-dən gec olmayaraq "Gəlir vergisinin bəyannaməsi"** vergi orqanına təqdim edilməli;
- **Xüsusi notariuslar** tərəfindən vergitutma obyektindən xərclər çıxılmadan **10 faiz** dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın **20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməli, hər rüb başa çatdıqdan sonra növbəti ayın **20-dən gec olmayaraq "Xüsusi notariusun gəlir vergisi bəyannaməsi"** vergi orqanına təqdim edilməli;
- Hər ay üçün **məcburi dövlət sosial sığorta haqqı** hesablanmalı, sonrakı **ayın 15-dən** gec olmayaraq tam məbləğdə **yalnız nağdsız** hesablaşma qaydasında ödənilməli;
- Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın **20-dən gec olmayaraq** "Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat" uçot üzrə vergi orqanına təqdim edilməlidir.

# Məcburi dövlət sosial sığorta haqları barədə

**Məcburi dövlət sosial sığorta haqları aşağıdakı qaydada hesablanır:**

2019-cu ilin 1 yanvar tarixindən 1 il müddətində ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının 50 faizi məbləğinin, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi məbləğinin:
Bakı şəhərində 100 faizi, Sumqayıt və Gəncə şəhərlərində 90 faizi, respublika tabeli digər şəhərlərdə 80 faizi,
rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi, kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər;

**Mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər üzrə ödəmə mənbəyindən tutulmaqla** – gəlirlərinin 25 faizi miqdarında;

Müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;

**Xüsusi notariuslar üzrə** – minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında;

**Vəkillər Kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər** – gəlirlərinin 20 faizi miqdarında;

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə-kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əməkhaqqının 6 faizi miqdarında.

# Azadolmalar barədə

## Gəlir vergisindən azaddır:

- Təqvim ili ərzində alınan hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1.000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın dəyərinin 2.000 manatadək olan hissəsi, mirasların dəyərinin 20.000 manatadək olan hissəsi;
- Hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;
- Qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakından başqa, daşınan maddi əmlakın təqdim olunmasından gəlir;
- Dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;
- Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər;
- Sənətkarlıq sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;
- Kompensasiya xarakterli müxtəlif ödənişlər;
- Beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların 4.000 manatadək olan dəyəri;
- Respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində 200 manatadək olan dəyəri;
- Torpaqların dövlət ehtiyacları üçün alınması zamanı ödənilən kompensasiya;
- Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılmış sənaye, yaxud texnologiyalar parklarının rezident fiziki şəxslərinin bu parklardakı fəaliyyətdən əldə etdikləri gəlir (əməkhaqqından tutulan gəlir vergisi istisna olmaqla) **7 il müddətinə**;
- Yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri **1 fevral 2016-cı il tarixdən etibarən 7 il müddətinə**;
- Qanunla müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan fiziki şəxslərin dividend gəlirləri;

- İnvestisiya təşviqi sənədi almış fərdi sahibkarın əldə etdiyi mənfəətin **50 faizi** həmin sənədi aldığı tarixdən **7 il müddətinə**;
- Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin **25 faizi** həcmində **(bu güzəştin alınması hüququ müəyyən edilərkən vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır)**;
- Qanuna uyğun qaydada dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;
- **Maliyyə bazarına nəzarət orqanında** qeydiyyatdan keçmiş lotereyalardan pul şəklində əldə edilən uduşların 10 manatadək olan hissəsi;
- Vergi ödəyicisinin azı 3 (üç) il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi;
- **Mənəvi Dəyərlərin Təbliği Fondu** tərəfindən ödənilən maddi yardım (dəstək);
- **Azərbaycan Respublikası Prezidentinin** müəyyən etdiyi qaydaya uyğun olaraq **Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu** tərəfindən zəmanət verilmiş kredit üzrə ödəniş edilməsi hallarında borcalanların borclarının ödənilməsinin nəticəsi kimi əldə edilən gəlirləri;
- Mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirinin **75 faizi**;
- Mikro və ya kiçik sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir – **3 il müddətinə**;
- KOB klasterin iştirakçısı olan fərdi sahibkarın KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi – **7 il müddətinə**;
- "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanuna uyğun olaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin bu məqsədlə yaratdığı hüquqi şəxs tərəfindən haqqı ödənilən ictimai islərə cəlb etdiyi işçilərinin bu faliyyətlə əlaqədar gəlirləri.

## Məcburi dövlət sosial sığorta haqqından azaddır

- Təbii fəlakət və digər fövqəladə hallarla əlaqədar müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında, habelə xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar;
- Məcburi dövlət sosial sığorta haqları hesabına verilən sosial sığorta ödəmələrinin məbləğləri;
- Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına verilən dövlət təqaüdləri və dövlət müavinətləri;
- Muzdlu işə və sahibkarlıq fəaliyyətinə aid olmayan gəlirlər (faiz gəliri, dividend, əmlakın icarəyə verilməsindən gəlir, royalti, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir, hədiyyə və mirasların məbləği, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlar);
- İctimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar;
- Sığortaedənin işçilərinin yeməklə təmin edilməsi ilə bağlı üçüncü tərəfə ödədiyi vəsait;
- Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənilən maddi yardım (dəstək).

## Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə

**Vergi qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.**

195

AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az
**www.taxes.gov.az**